**UOT 745/749**

***Aysel İsrafilova***
***Azərbaycan Dövlət Rəssamlıq Akademiyası***
***AZ1029, Bakı, Heydər Əliyev pr.58***
***E-mail:*** israfilova95@gmail.com

# XVI ƏSR AZƏRBAYCAN VƏ TÜRK MİNİATÜRLƏRİNİN OXŞAR VƏ FƏRQLİ CƏHƏTLƏRİ

**Xülasə:** Bütün Şərq dünyasında öz üstün mövqeyini uzun müddət qoruyub saxlayan Təbriz miniatür məktəbinin Osmanlı dövrü türk miniatürlərinə göstərdiyi təsir təəccüb doğurmur. Bu da onların bir çox xüsusyiyyətinin bənzərliyini açıqlayır. Amma buna baxmayaraq, onların arasında nəzərə çarpan fərqli xüsusiyyətlər isə hər iki miniatür üslubuna təsir edən fərqli ənənələrin nəticəsidir.

**Açar sözlər:** Təbriz miniatürləri, Osmanlı miniatürləri, XVI əsr miniatürləri , saray rəngkarlığı, əlyazmalar.

Klassik Şərq poeziyası miniatür üslubunun məzmununu, ideya istiqamətini müəyyənləşdirməklə yanaşı, həmçinin miniatürün bədii forması və ifadə vasitələrinin təkamül prosesinə də təsirsiz qalmamışdır. Bu Qədim Şərq poeziyasının yüksək obrazlar aləmi, zəngin və zərif dili, forma və vəzn müxtəlifliyi, musiqi ahəngi ilə məşğul olan sənətkarlara poetik təsvir dilinə uyğun bədii formalar, obrazlı ifadə vasitələri, şərti dekorativ üslub kimi xüsusiyyətlərdən istifadəyə geniş imkan yaratmışdır. Elə buna görə də, Yaxın Şərq, Orta Şərq və Ön Asiya təsviri sənəti bədii forma və üslub xüsusiyyətlərinə görə bir sıra oxşar cəhətlərə malikdir. Ancaq buna baxmayaraq, illüstrə edilən əlyazmaların poetik mətninin ümumuliyi və miniatür üslublu boyakarlığın özünəməxsusluğundan yaranan bu oxşarlıqla yanaşı, hər bir xalqın incəsənəti özünə xas olan xüsusiyyətləri ilə seçilir ki, bu da həmin xalqın estetik fikri, bədii təfəkkür tərzinin inkişafı, ictimai həyatının xarakteristikası ilə əlaqədardır. Ərəb ölkələri, İran, Azərbaycan, Türkiyə və Orta Asiya xalqlarının miniatürlərində rast gəlinən oxşar və fərqli cəhətləri, ümumi və özünəməxsus xüsusiyyətləri yuxarıda sadaladığımız cəhətlərlə şərtləndirilir.( 5 )

XV əsrin sonu XVI əsrin əvvəlləri Təbriz miniatür üslubunun inkişaf prosesindəki kamilliyinin zirvəsinə çatmasına baxmayaraq, Osmanlı miniatürlərində "klassik dövr" adlandırılan bu mükəmməlliyə qovuşması bir qədər gec-XVI əsrin sonlarına təsadüf edir.

Kamillik səviyyəsinə çatan Təbriz miniatür məktəbinin nümunələri XV-XVI əsrlərdə Kəmaləddin Behzad, Sultan Məhəmməd, Mir Müsəvvir, Ağa Mirək, Mir Seyid Əli, Müzəffər Əli və başqaları da daxil olmaqla bir qrup görkəmli sənətkarın fırçasından çıxmışdır. Bu dövr Omanlı miniatür üslubu isə Yavur Sultan Səlim və Sultan Süleyman Qanuni kimi hökmdarların himayəsində öz inkişafının klassik dövrünə çatmağa çalışırdı.Bu dövr Osmanlı miniatür üslubunun əsas fərqləndirici cəhəti kimi "topoqrafik rəssamlıq" adlı yeni bir təsvir növünün yaranması idi. Təbriz miniatürlərindən fərqlənən bu yeni növ təsvirlərdə rast gəlinən üslub xüsusiyyətlərinin Avropa rəngkarlığındakı "portolan" tipli təsvirlərə bənzəməsi ilə seçilir. Əsas motivlərin təsvirində rəngin az istifadə olunması, qrafik xarakter daşıyan bu təsvirlərin yalnız arxa planında açıq rənglərlə təpələr, ağac və kol kimi motivlərin verilməsi XVI əsr Təbriz miniatürlərində rast gəlinmirdi. Bu tip təsvirlərin əksərən fiqursuz olmaları da onların fərqləndirici cəhəti idi. XVI əsr miniatürlərindəki bütün bu fərqli cəhətlərlə yanaşı Təbriz miniatürləri ilə oxşarlığını göstərən "Şahnamə" tipli tarixi mövzulu əsərlərin Qanuninin dövründən etibarən rəsmi xarakter daşımasıdır. Səfəvi şəhzadəsi Əlqas Mirzənin İstanbul sarayına yanında apardığı görkəmli sənətkarlar və dəyərli əlyazma nümunələri sayəsində bu dövrdə bir daha Təbriz Osmanlı miniatürlərində görə bilirik.

II Bəyazidin dövründə türk təsviri sənətində Qərb təsirlərinin zəifləməsi və Şərq təsirlərinin artması müşahidə olunur. Belə ki, Qərbin təsiri ilə yaranan portretçilik ənənələri üstünlüyünü Şərqin miniatür ənənələri alır. I Səlimin dövründə gerçəkləşən Şərqdən İstanbula sənətkarların böyük köçü ilə türk miniatürlərində özünü göstərən Təbriz bədii məktəbinin ənənələri vasitəsilə XVI əsrin sonlarına doğru yeni dekorativ üslub yaratmışlar. Bu dövrün Təbriz miniatürlərinin nəfisliyinin göstəricilərindən biri olan həddindən artıq dekorativlik bu dövdən Osmanlı miniatürlərində də nisbətən özünü göstərir. II fəsildə adlarını çəkdiyimiz Əlişir Nəvainin "Divan"ı, Səlimin "Divan"ı, "Quy-i Çovqan", "Tövhətül əxyar" kimi bir çox əlyazmanın illüstrasiyalarında bu dekorativliyə şahid olmaq olar. Həmin dövrün Təbriz bədii məktəbinin inciləri olan 1537-ci ildə Təhmasib şah üçün hazırlanan "Şahnamə", Hafizin 1530-cu illərə aid L.Kartjenin kolleksiyasında saxlanılan "Divan"ı, Ə.Caminin 1549-cu ilə aid Sant-Peterburqda saxlanılan "Silsilət əz-zəhab" əlyazmalarının illüstrasiyalarında və həmçinin Sant-Peterburq və İstanbulda saxlanılan xüsusi albomlarda toplanmış müstəqil miniatürlərdə də eyni xüsusiyyətləri görmək olar. (3, s.50)

XVI əsr miniatürlərinin fərqli cəhətlərindən biri kimi insan fiqurlarının təsvirini göstərmək olar. Təbriz miniatürlərindəki insan fiqurları, xüsusilə də şah və əsilzadələrin surətlərinin dada incə , uzun Zahirən gözəl, ədalı və idealizə olunmuş təsvirləri Osmanlı miniatürlərində bir qədər fərqli olaraq şah və əhəmiyyətli şəxslərin fiqurları iri cüssəli, kök formada, əksərən səltənət simvolları ilə taxt-tacında əzəmətini nümayiş etdirərək oturarkən təsvir olunurdu.

1558-ci il tarixli "Süleymannamə" əlyazması üçün işlənmiş "Sultan Süleyman Qanuninin məclisi" adlı illüstrasiya bu dövrün Türk miniatürlərinin Təbriz miniatürləri ilə bənzərliyini göstərən bir nümunə ola bilər. Burada Səfəvi

miniatürlərində olduğu kimi taxt-tac səhnəsinin kompozisiya quruluşundan interyerin çox planlı təsviri, dekorativliyin bolluğu kimi bir çox xüsusiyyətlər bənzərdir.

XVI əsrə aid əlyazmalardan biri olan yuxarıda qeyd etdiyimiz Ə.Nəvainin 1534-cü il tarixli "Divan"ı Osmanlı miniatür üslubunda əhəmiyyətli yer tutan Təbriz ənənələrinin sübutudur. Əlyazmanın miniatürləri o dövrdə Təhmasib Şah üçün hazırlanmış əlyazmaların illüstrasiya nümunələrinin təqlidi olduğunu söyləməyə imkan verir. Əlyazmanın frontispisindəki ov səhnəsi yırtıcı heyvanları öldürən, ceyranları oxla ovlayan atlılar kimi detalları ilə Səfəvi dövrü Təbriz əlyazmalarının miniatürlərini eyni ilə təkrarlayırdı. Fiqurların geyimlərində nəzərə çarpan detallar bu miniatürləri işləyən sənətkarların Təbriz bədii məktəbinin ənənələrini mənimsəmiş Osmanlı və ya Təbriz rəssamları olduğunu təsdiq edir.

İstanbulda Osmanlı fəthi zamanından başlayan miniatürün türkləşmə prosesi təkcə insan təsvirlərində, memarlıq dekorlarında deyil, həm də mənzərə təsvirlərində də öz əksini tapmışdır. Mənzərə sahəsində olan yenilik ümumilikdə əlyazmaya da böyük təsir etdi. Belə ki XVI əsr türk miniatürlərini Azərbaycan miniatürlərindən fərqləndirici cəhətlərdən birinə də peyzaj təsvirlərində rast gəlinir. Belə ki, Təbriz miniatürlərində götürülmüş sərv ağacı, piramida şəkilli sıx çətirli və çiçəklənən meyvə ağacları kimi motivlərlə yanaşı yalnız Osmanlılara məxsus iri yelpikşəkilli yarpaqları olan bitkiler, quş təsvirləri, qırmızı və mərcanı rəngli üzüm tənəkləri, solğun və yumşaq rəng koloriti, kələ-kötür qalın konturlarla təsvir edilmiş təpələr, mərtəbə formalı bitki örtüyü kimi başqa detallar sıx rast gəlinən fərqləndirici cəhəhətlərdəndir.

XVI əsrin birinci yarısında Təbrizdən İstanbul saray nəqqaşxanasına aparılan Vəlican Təbrizi, Şahqulu Təbrizi, Kamal Təbrizi kimi sənətkarların da səyləri nəticəsində XVI əsrin ikinci yarısında özünəməxsus türk miniatür üslubunun formalaşması başa çatır. Təbriz miniatür üslubunun inkişafının son dövründə meydana gələn türk miniatür üslubu onların inkişaf mərhələləri arasındakı fərqləndirici cəhət kimi qəbul edilə bilər.

XVI əsr Təbriz miniatürlərini türk miniatürlərindən fərqləndirən digər bir cəhət isə XV əsrdə Fateh Sultan Mehmetin dövründən etibarən Osmanlı təsviri sənətində böyük əhəmiyyət kəsb edən və yayılan portret janrı Təbriz bədii məktəbində isə bir qədər gec-XVI əsrdə Sultan Məhəmmədin və ona mənsub olan məktəbin rəssamlarının yaradıcılığında geniş yer tutur. Tip olaraq, obrazların fərdi və psixoloji xüsusiyyətlərinə görə bir-birindən kəskin dərəcədə fərqlənməyən Təbriz məktəbinin portret nümunələri hal və hərəkətləri rəng harmoniyası ilə işlənmiş, Osmanlılarda olduğu kimi saray və hakim təbəqələrin gözəllik ideallarını əks etdirərək şərti sxemlər və kanonlar əsasında yaradılmışdır. Türk miniatürlərində Osmanlı sultanlarının portretlərində güc və səltənəti simvolizə edən detallardan fərqli olaraq, Azərbaycan miniatürlərində isə Səfəvi şəhzadələrində incə zövzqlərini və zərif ruhlu olduğunu vurğulayan motivlərdən istifadə edilirdi. Osmanlı portret janrında işlənmiş miniatürlərində Avropa təsirindən yaranan sərbəstiyin əksinə Təbriz məktəbinin eyni janrlı miniatürlərindəklassik poeziyadan

gələn təsir nəticəsində sürətlərin idealizə edilərək fərdi və psixoloji keyfiyyətlərdən məhrum olması aydın şəkildə görünür. Bu xüsusiyyətlərə Sultan Məhəmmədin Sant-Peterburq, İstanbul və Parisdə saxlanılan "Gənc oğlan" portretlərində , Mir Seyid Əli, Mir Müsəvvir və Dust Məhəmməd kimi sənətkarların əsərlərində də rast gəlinir.

XVI əsrin sonları III Muradın səltənət illərinə təsadüf edilən Osmanlı hökmdarlarının silsilə halında portretlərdən ibarət əlyazmalar hazırlanmağa başlayır. Bu dövrün Azərbaycan miniatür tarixində isə belə tipli əlyazmalara rast gəlinmir. Bu dövrə aid "Şəmailnamə" adlı əsərdə toplanılan miniatürlərdə Avropa rəssamlarının yağlı boya portretlərindən mənbə kimi istifadə edildiyindən Avropa təsiri hiss olunur.

XVII əsrdən etibarən özünü göstərən realistik xüsusiyyətlərin rüşeymlərinə hələ XVI əsrin sonları III Mehmedin hakimiyyəti dövrünə aid olan Nəqşi tərəfindən illüstrə edilən Nadirin "Divanı" əlyazmasının "III Mehmed məiyyətlərin əhatəsində taxtda əyləşib" miniatüründə rast gəlinir. Burada Osmanlı sultanlarının müqəvvaya bənzıər tipli, donuq portretlərini deyil, sərbəst pozalı, xarakterli, canlı insan fiqurlarını görürük. qrup portreti şəklində işlənmiş bu miniatürdə realistik tərzdə təsvir edilən mərkəzi hökmdar fiquru musiqiyə qulaq asarkən düşünən zaman təsvir edilmişdir. Sultan fiqurundakı bu sərbəstliyi və donuqluqdan uzaq ifadəni eyni zamanda yanında duran iki gənc oğlu I Əhməd və I Mustafanın fiqurlarında, vəzirin, iki cırtdanınvə digər əyanların fiqurlarında da görmək olar.

XVI əsrin sonlarına aid eyni donuqluqdan uzaq ifadəli obrazını Sadıq bəy Əfşarın "Dərviş ağac altında" miniatüründə də görmək olar. Donuqluqdan uzaq olduğuna görə həm Azərbaycan, həm də türk miniatürünün adını çəkdiyimiz nümunələrindən də göründüyü kimi üslub xüsusiyyətləri ilə yanaşı həm də eyni dövrə aid olduqlarına görə bənzərlik təşkil edir. Ancaq buna baxmayaraq, Əfşarın klassik qələm və tuş ilə işlədiyi rəsmi rəngsiz şaquli uzadılmış şablon dərviş fiquru sənətkarın səyi ilə miniatürün şərtilik kanonlarını pozmadan canlı fərdi insani cizgiləri daşıyır. Eyni xarakterik xüsusiyyətləri İstanbul nəqqaşxanasında fəaliyyət göstərmiş Təbrizli rəssam Vəli Canın "Dərviş" obrazında da görmək olar.

Portret janrındakı bu yeniliklərlə yanaşı bu dövrün türk miniatür üslubundaki digər bir yenilik isə "Saz" üslubunun yaranmasıdır. Osmanlı "Saz" üslubunun təkamülünü aydın şəkildə fantastik varlıqlar olan əjdaha və pərini əhatə edən incə və mürəkkəb hörüklü nəbati təsvirlərdə meydana gəlirdi. Eyni zamanda bu rəsmlərdən götürülmüş çiçəkli budaqlar və yarpaqların zərif formaları o dövrün kitab tərtibatında dekorativ elementlərini zənginləşdirirdi. Ümumtürk xarakterli Mərkəzi Asiya mənşəli ağac oyuqlarında və qayaların arasında gizlənən ruhlar yaşayan ovsunlanmış meşə kimi mistik və şamanizm konsepsiyası hələ XIV əsrdən Elxani dövrü Təbriz boyakarlığında öz əksini tapmışdır. Bundan başqa XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu Təbrizində, Heratda, XVI əsr Səfəvi Təbrizində daha sonra isə Osmanlı nəqqaşxanalarında bu konsepsiya inkişaf etdirilir. Lakin Osmanlılar bu istiqamətə xüsusi diqqət ayıraraq bu üslubu daş üzərində oyma, bədii parça və xalça, keramika sənətlərinə də tətbiq edirdilər (4.s-111,112).

Beləliklə, bütün Şərq dünyasında öz üstün mövqeyini uzun müddət qoruyub saxlayan Təbriz miniatür məktəbinin Osmanlı dövrü türk miniatürlərinə göstərdiyi təsir təəccüb doğurmur. Bu da onların bir çox xüsusiyyətinin bənzərliyini açıqlayır. Amma buna baxmayaraq, onların arasında nəzərə çarpan fərqli xüsusiyyətlər isə hər iki miniatür üslubuna təsir edən fərqli ənənələrin nəticəsidir.

## Ədəbiyyat:

1. Kərimov K.Azərbaycan miniatürləri. Bakı: 1980
2. Həsənzadə C. Təbrizin solmaz boyaları. Bakı:2001
3. Banu Mahir.Osmanlı minyatür sanatı. Kabalcı yayıncılık, 2005
4. Tahir Osman oğlu Çelikbağ. XV-XVII əsrlərdə Osmanlı miniatürlərində Təbriz məktəbi ənənələri. Dissertasiya. Bakı:2012.
5. http://bilinmeyentarihh.blogspot.com/p/osmanl-devleti-ve-kanuni-sultan.html
6. https://menqarabagam.blogspot.com/2015/09/Tebrizminiaturmektebi.html
7. https://menqarabagam.blogspot.com/2015/09/Tebrizminiaturmektebi.html

**Айсель Исрафилова**

## Сходные и отличительные черты азербайджанской и турецкой миниатюр 16-го века

### Резюме

Тебризская школа миниатюры долгое время сохраняла свое первенство во всем восточном мире. Этим и обьясняется его влияние на Оттоманские миниатюры.Отличительные черты этих школ - результат различных традиций, которые влияют на миниатюрные стили.

**Ключевые слова:** Миниатюры Тебриза, Оттоманские миниатюры, миниатюры XVI века, дворцовая живописъ, рукописи.

**Aysel İsrafilova**

## Similar and distinctive features of the 16th-century Azerbaijani and Turkish miniatures

### Summary

The Tabriz miniature school has maintained its superior position throughout the entire Eastern world for a long time. It explains its effects on the Ottoman era miniatures. However, the distinctive features among them are the results of different traditions that affect both miniature styles.

**Keywords:** Tabriz miniatures, Ottoman miniatures, XVI century miniatures, palace painting, manuscript.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 03.05.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 11.05. 2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 08.06. 2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Mehriban Novruzova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**